ədalət.- 2020.- 15 iyul.- S.4

# "Mir Cəlalın poetikası" trilogiyası haqqında qeydlərim



*Nizami Xudiyev,*
*professor, əməkdar elm xadimi,*
*filologiya elmləri doktoru*

**Orta məktəbdə biz şagirdlərin sevimli yazıçılarından biri də unudulmaz ədibimiz, "Bir gəncin manifesti" romanının müəllifi Mir Cəlal idi. Bu əsəri inanmıram oxumayan gənc tapılsın. Sinfimizdə kitab əl-əl gəzirdi - növbə idi. Mən canfəşanlıq etmirdim, bu, yoldaşlarımda təəccüb doğursa da müəllimimizdə sakitlik yaratmışdı. Səbəbi o idi ki, atam Mənafı tanıyırdı, onun kitab həvəskarı olduğundan məlumatlı idi. Müəllimim yanılmamışdı...**

### *Pedaqoji Universitetdə oxuyarkən*

başqa bir aləmdə ədəbiyyatı bizə təqdim etdilər, daha geniş və sosial sferada, dünya ədəbiyyatı ilə paralellik aspektində, M.F.Axundovu, A.A.Bakıxanovu, İsmayı bəy Qutqaşınlısı, Y.V.Çəmənzəminlisi, İ.Musabəyovu olan bir millətin istedadında, yetirdiyi yazıçıların, şairlərin, dramaturqların simasında. Hansı ki, milli ədəbiyyatımızı tədris edən akademik F.Qasımzadə, professorlardan Xeyrulla Məmmədov, Sədi Əfəndiyev, Fərhad Fərhadov, Kamal Qəhrəmanov, müqtədir tənqidçi Əhəd Hüseynov. Mən mərhum Əhəd Hüseynovu xüsusilə qeyd etməyi özümə borc bildim: O, Mir Cəlalı auditoriyamıza çoxdan cəlb etmişdi. Ədibin yaradıcılığından dissertasiya yazıb müdafiə etmişdi... Daha sonralar Mir Cəlal haq-qında Yaqub İsmayılovun bir monoqrafiyasını nəzərimdən keçirdim, Cəfər Xəndanın kiçik həcmli kitabçası ilə tanış oldum, eləcə də arabir yazılmış məqalələrlə. Lakin içimdə bir boşluq yaranmışdı: böyük yazıçımızın maraqlı və zəngin yaradıcılığı nüfuzlu ədəbiyyatşünaslarımızın diqqətindən nə üçün yayınır? Sualı "məqsədli" vermirəm özüm üçün, çünki tənqidçini, tədqiqatçı-nı məcbur etmək olmaz ki, filankəsdən yazmalısan! Əsla! Kimin ədəbi zövqünə müvafiq gəlirsə yazır. Bir də Mir Cəlalın romanları, povestləri və hekayələrində qoyduğu problemlər bu gün də aktuallığını itirməmişdir, "ədəbi həlli"ni gözləyir. Nəhayət, bu "boşluğu" tanınmış pedaqoq - alim, məhsuldar ədəbiyyatşünas, yazıçı Allahverdi Eminov səmimiyyətimlə, ədalətliliyimlə və yaxın münasibətimlə etiraf edərdim ki doldurdu. Necə, hansı mənəvi və ədəbi ovaqtda: ötəri hissləmi, kitab xətrinəmi? Heç birisiylə! Təsəvvürə gətirmirəm ki, Azərbaycan ədəbiyyatşünas-lığında (eləcə də keçmiş SSRİ məkanında) - ilk dəfə nəsrin poetikası zəminində konkret bir ədibin nümunəsində çoxcildli əsər nəşrdən çıxsın. Mir Cəlalın yaradıcılığı baxımından yanaşanda isə: "Mir Cəlalın poetikası" 3 cildliyi. (Bakı, "Elm və təhsil" nəşriyyatı, 2019. 1030 səhifə. Elmi redaktoru, professor Nadir Məmmədli). Nəfis şəklində işıq üzü görən monoqrafiya Allahverdi Eminovun gərgin əməyinin: özünəxas üslubunun, axtarışlarının məhsuludur. Xatırlatmaq istərdim ki, bir ədəbi şəxsiyyət haqqında onlarla kitablar (monoqrafiyalar) yazmaq qeyri-adi deyil, lakin bir ədibin yaradıcılığına məxsus bir mövzu haqqında 3 cild qələmə alıb ortaya qoymaq hünərdir. Niyə etiraf etməyək? Ümumiyyətlə, A.Eminovun tənqidi təfəkkürü analitikliyi və dil zənginliyi ilə seçilir, görünür, buna bir səbəb də maraqlı romanlar müəllifi olmasıdır. Yeri gəlmişkən xa-tırladım ki, Mir Cəlal vaxtilə, 30-cu illərdə Azərbaycan təhsilinin durumu ilə əlaqədar "Açıq kitab" romanını yazmışdır. Allahverdi müəllim bu romanda qaldıran məsələləri müasir mərhələdə "Qapalı kitab" romanında vermişdir. Mir Cəlal müəllimə həsr etmişdir, 2012-ci ildə nəşr olunmuş-dur. Bu yanaşma müəllifin görkəmli ədibimizin şəxsiyyətinə və irsinə xüsusi simpatiyası olduğuna əyani sübutdur.

### *"Mir Cəlalın poetikası" monoqrafiyasının*

***(bütöv halda) hər bir cildi yazıçı nəsrinin bir tematikasının təhlilinə həsr olunmuşdur. Belə ki, vaxtilə romanlarında qaldırılan məsələlərin təsir dairəsi, obrazlara münasibəti, estetik ideal, hadisənin daxili dinamikasının vahid məzmuna malik olması və sair təhlilini tapmışdır. Yazıçının müşahidə etdiyi hadisələr və qəhrəmanlar əzabla həqiqətin axtarışlarından kənarda qalmırlar, fəlakətdən saralmış tiplər deyillər. Ədib oxucularında ümidsizlik aşılamaqdan uzaq olmuşdur, fərəh duymağa çağırmışdır.***

Belə bir yazıçı fikri, yəni hər hansı hadisə haqqında görüşləri ədəbiyyatşünas bədii konsepsiyada axtarmışdır - bunlar baxır yazıçı obrazının hansı səviyyədə təqdim edir: qəhrəmanın özündən artıq onun oyatdığı duyğular daha çox oxucuda maraq doğurur. Məhz Mir Cəlalın Qədiri, Mərdanı, Sonası, Sabiri, Kərim Gəldiyevi, Kazım Qəzənfərovu belə bir psixologiyada yaradılmışdır. Ona görə də tənqidçi haqlı olaraq vurğulayır ki, bu ovqatda yaradılan əsərlərin qəhrəmanlarının emosiyaları safdır, hər hansı təqliddən, yadasalmadan kənardadır.

***Mir Cəlalın bəzi romanlarına ("Yolumuz hayanadır?" əsərini müəllif nəzərdə tutur) olan tənqidi münasibətə aydınlıq gətirir: vaxtilə yanlış nəticəyə məruz qalmışdır. Allahverdi Eminov əsərin (təkcə bu roman yox) zamanı və yazılma müddətinin özünü bir nəticə hesab edir, əsərin gedişi prosesindən ayırmır.***

### *Tamamilə haqlı fikirdir:*

Bədii ədəbiyyatda Zaman obrazı aparır, görünməni müəyyənləşdirir. Necə ki, romanda hadisələrin dəyişməsinin səbəbi Zamanın özü deyilmi? Yazıçının əl-qolunu bağlamağa dəyməz: "Bədii əsər tarixi hadisədən və şəxsiyyətdən bəhs edirsə belə, sərbəst bədii düşüncə, təxəyyül, Məkan və Zaman müstəvisindən çıxma Mir Cəlalın romanında "tapılıbsa, həqiqətlərdən boyun qaçırmağı məqsədəuyğundursa... yazıçı Zamanı qabaqlamışdır" - yazır. A.Eminov yazıçının romanı yazmağa hansı psixoloji amil, təkamül məcbur etmişdir? sualını iki səbəblə əsaslandırmışdır.

Birincisi sırf yaradıcılıq psixologiyasıdır. İkincisi yazıçını mövzuya təhrik edən daxili təkandır, bu isə bədbinlik, yaxud nikbinlik notları ilə bağlıdır. "Yolumuz hayanadır" romanın doğurduğu mübahisənin bir səbəbini A.Eminov əsərin janrı ilə əlaqələndirir:

***"Romanı sırf tarixi əsər hesab etmək düzgün deyildir, tarixi mövzuya qayıtmaq hələ tarixliyi əks etdirmək demək deyildir. Müəllif dövrün hadisələrini görür, duyur, oxucunu illərə aparırsa... epik, azad, sərbəst məzmun daxilində bədii məqsədini təsvir edir. Bu, haqq vermir romana tarixi faktlar kontekstində qiymət verək".*** Allahverdi Eminov romanın təhlilində mətndən çıxış edərək üç tezisini sual şəklində qoyur və bu ilk dəfə çıxarılan nəticədir: Azərbaycanı başdan-ayağa bürüyən ədalətsizlik, haqsızlıq sindromunda nə gözləyir? Milli ziya-lılarımız nicat yolunu tapa biləcəkmi? Obrazlar bu mühiti dialoji tərzdə qavramağa hazırdırlarmı? Müəllif bu üç sualla romanın poetikasının bir xəttini təhlilə cəlb etmişdir.

Allahverdi Eminovun Mir Cəlaldan yazan müəlliflərin bir anlaşmasına münasibəti maraq doğurur: mühüm surətlərdən biri Əntiqə ilə bağlıdır. Mir Cəlal sonralar (1967) "Dağlar dilləndi" kiçik povest yazmışdır. A.Eminov belə bir fərziyyə irəli sürmüşdür ki, bu povest "Yolumuz hayanadır" romanın davamı deyil və yeddi arqumenti (səh.224-225) göstərir. Düzü, mən əsəri bir daha vərəqlədim, povesti nəzərdə tutmuram. Allahverdi müəllim diqqətlə fikrini əsaslandırmışdır: "Dağlar dilləndi" Mir Cəlalın müstəqil əsəridir, onun pedaqoji fəaliyyətindən irəli gələn yaradıcı müşahidəsinin məhsuludur, hadisələr daha dinamik inkişaf edir, talelər mürəkkəbləşir və qarşıdakı konfliktlərin səsidir. Yazıçı əsərinin sonrasını da davam etdirmək üçün xeyli açılmamış hadisələrin, xarakterlərin psixologiyasını tamamlamaq istəmişdir". Birinci cilddə Mir Cəlalın nəsr poetikasında xüsusi yer tutan "Bir gəncin manifesti", "Təzə şəhər", "Yaşıdlarım" əsərlərinin analitik təhlilini çağdaş dövrümüzlə təbii şəkildə bağlamışdır. Bu fikir mənim də yaddaşımdan çıx-mamışdır, sadəcə, ona qayıtmaq istəməmişdim, dilçiliyin arxasınca gedəsi oldum, amma bu addım mənim filoloqluğuma maneçilik törətmədi.

**"Mir Cəlalın poetikası" monoqrafiyasını oxuyanda xatırladım: Ədibin əsərləri öz zamanında mübahisələrsiz keçməmişdir: demək, tənqidçilər, görkəmli ədiblər də Mir Cəlal nəsrinin mənəvi - əxlaqi və sosial - ictimai problemlərin qaldırılmasına ciddi yanaşmamışlar. Bu, bir yana, yazıçının "Bir gəncin manifesti" əsərinin orta məktəbdə tədrisini məqsədəmüvafiq saymamışlar, eləcə də Mir Cəlal yaradıcılığını.**

### *Bu məsələni mətbuatda*

("Azərbaycan müəllimi" qəzetində) məhz Allahverdi Eminov qaldırdı. Bu gün tarixi həqiqəti unutmaq olmaz. Məntiqlə deyərdim ki, ədəbiyyatşünas - pedaqoqda Mir Cəlal nəsrindən yazmaq həvəsi daxilində oyanırmış.

Nəticədə ilk araşadırması "Bir gəncin manifesti" oldu. Romanda M.Cəlalın ideya axtarışı obrazlarının xarakter - cizgilərində özünü büruzə verdi və bu ideya nailolma niyyətinin reallaşması üçün yeni üslub, bədii vasitələr tapmaq imkanı yaratdı, lakin məişət səhnələrindən uzaqda dayandı, ona görə ki, müəllif oxucu zövqünü, intellektini nəzərə aldı, bədii konsepsiyasına sadiq qaldı. Əxlaqın görünən və görünməyən tərəflərini oxuculara yaxınlaşdırdı. A.Eminov yazır: **"Əxlaqda ekzistensializm şəxsi məsuliyyəti hipertrofiyallaşdırır və onun obyektiv nəticəsi pisliyin həqiqi sosial mənbələrinin, konkret özünü günahkar hesab edənlərin müdafiəsi olur. Belə halda Bahar və Ağaməcid, sonra prosesə qoşulmuş Mərdan davranışlarında insana bərabərləşdirici, tarazlaşdırıcı yanaşma bununla nəticələnir ki, cavabdeh adamlar heçnə üçün məsuliyyət daşımır, yəni cavabdehliyin mütləqləşdirilməsi şəxsi məsuliyyəti aradan qaldırır".** Bu tezis romandan yazan tənqidçilərin yanaşmasında yoxdur. Bu müsbət analizin bir mühüm səbəbi Allahverdi müəllimin pedaqoqluğundan irəli gəlir.

### *Romanın məziyyətlərindən yazan*

**A.Eminov daha bir məsələyə toxunur poetika baxımından: idarəetmədə fərd - kütlə - qanun "üçlüyü"nün bir-birinə münasibəti məsələsi. Mir Cəlal dolğun yaşında bu əsəri yazmışdı əqli müdrikliklə, Sovet hökuməti iyirmi yaşında olsa da dövlətin idarəetmə rejimi, rəhbər məmurların xalqa, ziyalılara münasibətində ədalətsizlik çox idi, - Allahverdi Eminov qeyd edir, - repressiya maşını işləməkdə idi. Mərdan obrazına obyektiv təhlil verən müəllif yazır ki, o öz ideallarını ifadə edir, əxlaqından, dünyagörüşündən çıxış edir. Mənə xoş oldu ki, Allahverdi müəllim haqlıdır: "Bir gəncin manifesti" romanına qiymət vermək lazım gəlirsə, empirik təhlildən yan keçməliyik, inqilab vasitədir, maraqlısı bu vasitənin icraçılarının hansı əxlaqa, əqidəyə malikliyidir.**

**(ardı növbəti sayımızda)**